Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı

# Dahi bəstəkarın dünya şöhrətinin əks-sədası

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı davam edir.**



Mədəniyyət Nazirliyindən verilən xəbərə görə, dahi bəstəkarın anadan olmasının 139-cu ildönümünə həsr olunan festival çərçivəsində artıq 9 gündür bir-birindən maraqlı konsertlər, tamaşalar, sərgilər təşkil olunur. Xarici qonaqların – musiqişünas və bədii kollektivlərin də həvəslə qatıldığı rəngarəng tədbirlərin əhatə dairəsi bir daha Üzeyir dühasının möhtəşəmliyini göstərir.

**Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən "Akademik Üzeyir Hacıbəyli" adlı elmi konfransda ittifaqın sədri, Xalq artisti Firəngiz Əlizadə dahi bəstəkarın həyat yolundan, zəngin yaradıcılığı və elmi irsindən danışıb, onun milli musiqimizin inkişafında mühüm xidmətlərini vurğulayaraq deyib:**

– Ənənəvi festival müxtəlif mədəniyyət müəssisələrində çoxsaylı təqdimatlarla zəngindir. Dünya ölkələrindən musiqiçilər və tamaşaçılar Üzeyir Hacıbəylinin zəngin musiqi irsi ilə daha yaxından tanış olurlar. Dahi bəstəkarın yaradıcılığı tükənməz sərvətdir, onun əsərlərinin yayılma coğrafiyası daim genişlənir, çoxşaxəli yaradıcılığı haqqında yeni-yeni tədqiqatlar aparılır. Bu, bizim üçün böyük fəxarətdir.

Qeyd edək ki, elmi konfransın ertəsi günü Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli adına Konsert Salonunda kamera-instrumental musiqisindən ibarət maraqlı konsert təşkil olunub. Üzeyir bəyin əsrarəngiz musiqisi virtuozların ifasında dalğa-dalğa ətrafa yayılaraq könülləri oxşayıb.

Şəmkir Alman Lüteran Kilsəsinin səhnəsində festival çərçivəsində Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupunun (bədii rəhbər Xalq artisti Ağaverdi Paşayev) konserti keçirilib. Xormeyster, Əməkdar artist Naala Baratelianın rəhbərliyi ilə konsertmeysterlər Lalə Bağırzadə və Fərdin İlham Məhəmmədzadə, Əməkdar artist Xəyyam Məmmədov (kamança), Emin Eminli (tar), Cəfər Həsənovun (nağara) müşayiəti ilə solistlər Orxan Əlizadə, Səbinə Əlizadə, Zəminə Ağayeva və Şahnaz Əliyeva öz ifalarını təqdim ediblər. Proqramda Cahangir Cahangirovun, Asəf Zeynallının, Fikrət Əmirovun, Tofiq Quliyevin əsərləri də ifa olunub. Xor üçün işlənmiş xalq mahnıları konsertə əlavə rəng qatıb.

Gəncə Dövlət Filarmoniyasının kamera Orkestrinin qədim şəhərdə verdiyi konsert də zövqləri oxşayıb. Bədii rəhbəri və baş dirijoru Rafael Bayramov olan bu peşəkar kollektivin repertuarında Üzeyir musiqisi üstünlük təşkil edib.

Azərbaycan Dövlət Akademik Filarmoniyasında isə Opera və Balet Teatrının Simfonik Orkestri və Xoru maraqlı proqramla çıxış edib. Konsertə Braziliyanın tanınmış musiqi xadimi Miguel Kampos Neto dirijorluq edib. Solistlər Fərid Əliyev (tenor) və İlahə Əfəndiyevanın (soprano) çıxışları dönə-dönə alqışlanıb. Xatırladaq ki, festivalın son günü – sentyabrın 28-də də filarmoniya musiqisevərləri qoynuna alacaq. Həmin gün dahi bəstəkarın adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri Əyyub Quliyevin dirijorluğu ilə festivalın yekun akkordlarını vuracaq. Virtuoz ifaçılar – Böyük Britaniyanı təmsil edən Dmitri Sitkovetski və Elvin Hoca Qəniyev violində, Murad Adıgözəlzadə isə pianoda növbəti dəfə ustalıqlarını nümayiş etdirəcəklər.

Dünən paytaxtın Kamera və Orqan Musiqisi Zalında Xalq artisti, professor Zəhra Quliyevanın rəhbərliyi ilə "Detaşe" ansamblı konsert verib. Konsertmeyster Səbinə Muradova gecəni yüksək səviyyədə idarə edib. Bu ansamblın əsas fərqli xüsusiyyəti alət tərkibinin ancaq violinolardan ibarət olmasıdır. Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının əsərləri məharətlə səsləndirilib.

**Musiqi bayramını yaxından izləyən dirijor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Telman Qəniyev təəssüratlarını bizimlə bölüşdü:**

– Böyük bəstəkar, musiqişünas, Azərbaycan professional musiqi məktəbinin banisi, həm də publisist, ictimai xadim Üzeyir Hacıbəylinin xatirəsinə təşkil olunan beynəlxalq Musiqi festivalı milli-mədəni irsə yüksək dəyər verildiyinin daha bir təzahürüdür. Üzeyir dünyası elə bir bulaqdır ki, daim çağlayır, hər kəsi duyğulandırır.

**Telman müəllimin həyat yoldaşı – sənətşünaslıq üzrə fəlsəfə doktoru, Sumqayıt Dövlət Universitetinin dosenti Afaq Qəniyeva da onunla bərabər, konserti dinləyənlər arasında idi. O, ürək sözlərini belə ifadə etdi:**

– Bir həftədən artıqdır ki, festival tədbirləri ruhumuzu oxşayır. Həqiqətən də, Üzeyir bəyin musiqi irsi zəngindir və onun ruhuna göstərilən böyük ehtiram bizi hədsiz sevindirir. Nə qədər ki qədirbilən Azərbaycan xalqı və onun musiqi sənəti var, Üzeyir Hacıbəyli də yaşayacaq.

Qeyd edək ki, sentyabrın 28-də Kamera və Orqan Musiqisi Zalında daha bir maraqlı toplantı olacaq. Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti Nyu-York şəhərində keçirilmiş IV Beynəlxalq Bəstəkarlıq Müsabiqəsinin yekun konsertini təşkil edəcək. Bu gün axşam Beynəlxalq Muğam Mərkəzinin səhnəsi bəstəkar Türkər Qasımzadənin bədii rəhbəri olduğu "Cadenza" Orkestrinin öhdəsinə veriləcək.

***Ə.DOSTƏLİ***
***XQ***